TEXNİKİ MƏLUMAT VƏRƏQƏSİ

Mr.Fix® Flow 420 S
(Əvvəlki adı: Betonmix SP 420 S)

Məhsul haqqında

Mr.Fix® Flow 420 S - liqno sulfonat əsaslı, betonun erkən və son müqavimətini artıran,yüksək nisbətdə su azaldıcı və axışqanlaşdırıcı beton qatqısıdır.
EN 934-2 standardı cədvəl 3.1 -ə uyğundur.

İstifadə sahələri

- Erkən və son müqaviməti yüksək tələb olunan betonlarda
- Yerləşdirmə çətinlikləri olan sıx təchizatlı betonlarda
- Sıx və düzgün səth tələb olunan betonlarda
- Erkən qəlipdən çıxarılma tələb olunan betonlarda
- Pompasız və pompalı hazır beton istehsalında
- Su bəndləri, körpülər və digər dekorativ beton konstruksiyalarında
- Yay aylarında uzun müddətli daşıma və işlənə bilmə tələb olunan betonlarda .

Üstünlükləri

- Fərqli sement növlərinə uyğundur.
- Betonun erkən və son müqavimətini artırır.
- Betonun axıcılığını qoruyaraq işlənə bilinməsini artırır və rahat yerləşmə xüsusiyyəti qazandırır.
- Hamar səthlər əldə edilməsini təmin edir.
- Betonun donma və istiliyə qarşı müqavimətini artırır.
- Rahat pompalamanı təşkil edər.
- Betonun büzülmə, dartılma və su keçirməmə kimi mexaniki xüsusiyyətlərinin artmasını təşkil edir.
- **Mr.Fix® Flow 420 S** -nın tərkibində xlor yoxdur, dəmir təchizatına zərər verməz.

Texniki göstəriciləri

Materialın tərkibi	Liqno sulfonat əsaslı
Rəngi	Qəhvəyi
Sıxlığı (ISO 758)	1,15 - 1,20 kq/litr
Xlor tərkibi % (EN 480-10)	< 0,1
Alkali tərkibi % (EN 480-12)	< 5,0

Yuxarıdakı göstəricilər +20°C də və 50% nisbi rütubət üçün verilmişdir.

Mr.Fix® Flow 420 S
(Əvvəlki adı: Betonmix SP 420 S)

İstifadə təlimatı

Qatqı betona əlavə edildiyində, bağlayıcı (sement, mikro silika, uçucu kül) dənəcikləri tərəfindən əmilir. Bunun nəticəsində bağlayıcı dənəciklər elektrostatik qüvvə nəticəsində bir-birilərini sürüşdürməyə başlayar və betonda su miqdarının az olmasına baxmayaraq axıcılıq xüsusiyyəti əldə olunur. Qarışım suyunun azalması nəticəsində betonun mexaniki müqaviməti artar. Ancaq bu təsirin homogen bir halda olmasını təmin etmək üçün betona əlavə ediləcək suyun 70 %-i əlavə edildikdən sonra qalan su ilə birlikdə **Mr.Fix® Flow 420 S** qarışıma əlavə edilməlidir. Qarışığın stabilliyini təmin etmək üçün laboratoriya sınaqlarında təsbit edilən müddətdə (minimum 90 saniyədən az olmamaq şərti ilə) qarışdırılmalıdır.

İstifadə miqdarı

Mr.Fix® Flow 420 S, betondan gözlənilən xüsusiyyətdən asılı olaraq, bağlayıcı (sement, mikro silika, uçucu kül, şlak) miqdarının 1 - 2 % nisbətində istifadə oluna bilər. İstehsal olunacaq betonun sinfinə və xüsusiyyətlərinə görə, qabaqcadan laboratoriya sınaqlarında təyin olunan nisbətlərdə istifadə edilməsi məsləhətlidir.

Digər qatqı məhsulları ilə ahəngi

- **Mr.Fix® Flow 420 S**, EN 197 standardındakı bütün sementlər ilə istifadə oluna bilər.
- Mr.Fix® Extra RPD, Mr.Fix® Extra RCA, Mr.Fix® Extra Antifreeze 1, Mr.Fix® Extra WP 1, Mr.Fix® Extra Air 80 qatqıları ilə istifadə edilə bilər.
- Plastikliyin azalması nəticəsində meydana gələ biləcək olan çatlara qarşı istifadə olunan, polad və sintetik liflərlə birlikdə istifadə oluna bilər.
- Uçucu kül, mikro silika və şlak kimi mineral qatqılarla birlikdə istifadə oluna bilər.
- Əlavə qatqılar ilə birlikdə istifadədən əvvəl uyğunluq sınaqları aparılmalıdır.

Diqqət edilməsi lazım olan xüsusiyyətlər

- **Mr.Fix® Flow420 S** beton qarışım suyuna qatılmalıdır, quru sementə və ya quru qarışığa əlavə olunmamalıdır. Əks təqdirdə qatqı, qarışım daxilində homogen bir şəkildə dağılmadan, qarışım tərəfindən əmiləcək və qarışımın su ehtiyacının artması nəticəsində beton sinfinə və xüsusiyyətinə mənfi təsir göstərəcəkdir.
- Tövsiyə edilən doza aralığından daha çox miqdarda qatqı istifadə edildiyi təqdirdə, betonun bərkimə müddəti havanın temperaturundan asılı olaraq uzana bilər. Bərkimə müddəti uzandığı hallarda, beton qəlib alma müddətincə nəmli tutulub kürlənməlidir.
- İstifadən əvvəl laboratoryada uyğunluğ sınaqları aparılmalıdır.
- Betonun konsistensiyasının nizamlamasında qatqının su kəsmə xüsusiyyəti nəzərə alınmalı, qarışığa çox su qatılması əngəllənməlidir.
- Doza miqdarına təsir edəcək faktorlardakı dəyişmələrə tez-tez nəzarət edilməlidir.

Mr.Fix® Flow 420 S
(Əvvəlki adı: Betonmix SP 420 S)

- İstifadədən əvvəl, beton komponentlərinə və beton sinfinə görə uyğunluq sınaqları aparılmalıdır.

Saxlama şərtləri

+5 ilə +35°C arası temperaturda, birbaşa günəş şüalarının təsirindən qorunaraq saxlanılmalıdır. Məhsul donduğu halda, onu birbaşa isitmədən, otaq temperaturunda donu açılmalı və homogen hala gəlincəyə qədər qarışdırılmalıdır.

Saxlama müddəti

Düzgün anbarlama şərtlərində, istehsal tarixindən etibarən 12 aydır. Açılmış qabların qapaqları təkrar kip bağlanaraq, son istifadə müddətinə qədər istifadə oluna bilər.

Təhlükəsizlik tədbirləri

Tətbiq əsnasında, iş və işçi sağlamlığı şərtlərinə uyğun iş paltarı, qoruyucu əlcək, eynək və maskadan istifadə edilməlidir. Materialın qıcıqlandırıcı təsirlərinə görə, dəriyə və gözə təmas etdirilməməli, təmas etdikdə isə dərhal bol su və sabunla yuyulmalı, udulması halında təcili olaraq həkimə müraciət olunmalıdır. Material tədbiq olunan sahələrə qida məhsulları buraxılmamalıdır. Uşaqların əllərinin çatmayacağı yerlərdə anbarlanmalıdır. Daha geniş məlumat üçün Təhlükəsizlik Məlumat Formasına baxılmalıdır.

Cavabdehlik

Şirkətimiz sadəcə məhsulun keyfiyyətinə cavabdehdir. Məhsulun harada və necə istifadə ediləcəyi ilə əlaqəli yazılı təkliflər xaricindəki və/və ya xətalı istifadələrdən şirkətimiz cavabdehlik daşımır. Daha ətraflı məlumat üçün məhsul kitabçası istəməyiniz və ya şirkətimizin cavabdehləri ilə əlaqə saxlamağınız xahiş olunur.

KARTAŞ KIMYA MMC

Sumqayıt Sənaye Parkı,Kimyaçılar küçəsi 1, AZ 5002

Sumqayıt şəhəri, Azərbaycan

www.mrfix.az

Tel: +994 12 310 88 55 , +994 10 347 00 10